**Azərbaycan Respublikasında dövlət standartlaşdırma sisteminin hüquqi bazasının yaradılmasının sürətləndirilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Dövlət standartlaşdırma sisteminin konsepsiyasının başa çatdırılması, istehlakçıların hüquqlarının müdafiəsi, standartlaşdırma, metrologiya və sertifikasiya sahəsindəki siyasət nəzərə alınmaqla Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarının hazırlanıb Milli Məclisin müzakirəsinə verilməsinin sürətləndirilməsi üçün Milli Məclisin üzvlərindən ibarət müvəqqəti komissiya yaradılsın.

2. Müvəqqəti komissiya aşağıdakı tərkibdə təsdiq edilsin:

Vaqif **Qasımov** — Komissiyanın sədri, Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının sədri, Azərbaycan Texniki Universiteti metrologiya və standartlaşdırma kafedrasının dosenti;

Arif **Rəhimzadə** — Aqrar məsələlər komissiyasının sədri, Azərbaycan Respublikasının Dövlət müşaviri;

Cümşüd **Nuriyev**— Büdcəyə nəzarət komissiyasının sədri, Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini;

Fərrux **Zeynalov** — Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının üzvü, Azərbaycan Respublikasının material ehtiyatları naziri;

Ədalət **Rəhimli**— Sosial siyasət komissiyası sədrinin müavini, kimya elmləri doktoru;

Qalib **Qurbanov** — İqtisadi siyasət komissiyasının üzvü.

3. Komissiyanın işinə Ali Sovetin aparatının yüksək ixtisaslı mütəxəssisləri, respublikanın müxtəlif nazirlik, idarə və müəssisələrindən peşəkar, səriştəli ekspertlər cəlb edilsin.

4. Azərbaycan Respublikasının Prezidentinə tövsiyə edilsin ki, müvafiq qanun layihələrini Ali Sovetə təqdim etsin.

5. Müvəqqəti komissiyaya tapşırılsın ki, Milli Məclisin İqtisadi siyasət komissiyası ilə birgə həmin qanun layihələrini Milli Məclisin müzakirəsinə versin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**R. QULİYEV.**

Bakı şəhəri, 6 dekabr 1993-cü il.
№ 769.